19 may 2021-ci il



*Yaqub SÖZ*

## Şuşa vəsiyyəti

Ali Baş Komandan yeni xəbəri
Fəxr ilə söylədi bu gün ürəkdən.
Bitdi ayrılığın həsrət illəri
Doğma Şuşasına qovuşdu Vətən

Bu xəbər Şəhidlər Xiyabanından
Yayıldı dünyanın bütün yerinə.
Bir növü müzəffər ordu adından
Hesabat verildi şəhidlərinə.

Ulu Öndər məzarının önündə
Əyildi qəhrəman oğlunun başı.
Qol-boyun oldular zəfər günündə,
Sanki, cana gəldi məzarın daşı.

Ruhun dili ilə dinib, danışdı
Alınan nəsihət, verilən sözlər.
Ləyaqətlə söyləməyə çalışdı
Ziyarət məqsədin doluxan gözlər.

- Həyata keçməyən o niyyətini,
Şükr olsun həyata keçirə bildim.
Yerinə yetirdim vəsiyyətini-
"Şuşa azad oldu" xəbərə gəldim.

Şad xəbər sükutla verildiyindən,
Qəlblər bir-birinə yol tapa bildi.
Qarabağ yenidən dirildiyindən,
Vəsiyyət edənin ruhu dincəldi.

* * *

Bu payız köç edən durna qatarı
Xoş xəbər apardı uzaq ellərə.
Həsrətin zirvədə qurddamış qarı
Əriyib qarışdı ötən illərə.

Vüsaldan su içib ümid göyərdi,
Qarabağ köksündə döyündü ürək.
Cisminə qan verən həm də
deyərdi-
Əgər tələb olsa, can verəm gərək.

Lazım olan anda düzgün seçimi
Edən oğullarla öyünər Vətən.
Ana doğmasına sarılan kimi
Şuşanı bağrına basdı yenidən.

9.11.2020

